**UOT: 339.9**

***İlkin Ramiz oğlu BAYRAMOV***
***Elm və Təhsil Nazirliyi İqtisadiyyat İnstitutunun doktorantı,***
***E-mail: ilkinbayramov022@gmail.com***
***10.30546/1.72.2024.13***

# AZƏRBAYCANIN XARİCİ TİCARƏTİNDƏ LİBERALLAŞMA VƏ VALYUTA TƏNZİMLƏNMƏSİNDƏN İSTİFADƏ İMKANLARININ ARTMASI

*Xülasə*

**Tədqiqatın məqsədi** – xarici ticarət dövriyyəsində struktur dəyişikliklərinin aparılması və xarici ticarətin libeallaşma səviyyəsinin müəyyən edilməsi ilə əlaqədar ölkənin milli valyutasının istifadə imkanlarını aşkara çıxarmaq, milli iqtisadiyyatın son nəticələrinin beynəlxalq rəqabətqabiliyyətli olmasını öyrənməkdir.

**Tədqiqatın metodologiyası** – müqayisəli təhlil və ümumiləşdirmə, sistemli yanaşma, elmi abstraksiya, tarixiliklə məntiqiliyin vəhdəti.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – xarici ticarətin valyuta tənzimlənməsi sahəsində Azərbaycanın mövcud təcrübəsini elmi və təcrübi cəhətdən araşdırmaq, xarici ticarət dövriyyəsindən valyuta daxilolmaları və ölkədən valyuta çıxarılması prinsiplərini əsaslandırmaq imkanları.

**Tədqiqatın nəticələri** – Azərbaycanın xarici ticarət dövriyyəsinin valyuta tənzimlənməsi və nəzarəti ilə əlaqədar qarşıya çıxan problemləri aşkara çıxarmaqla idxal-ixrac əməliyyatlarında formalaşmış uyğunsuzluqların aradan qaldırılması istiqamətində əsaslandırılmış təkliflər vermək.

**Tədqiqatın təcrübi əhəmiyyəti** – Azərbaycanın idxal-ixrac əməliyyatlarına valyuta nəzarəti ilə əlaqədar yerinə yetiriləcək işlərin həcmini mövcud imkanlarla müqayisə edə bilmək bacarığını aşkara çıxarmaq, xarici ticarət subyektlərinin ölkəyə valyuta gətirmələrinin real və qanuni əsaslarını aşkara çıxarmaq.

**Tədqiqatın orijinallığı** – xarici ticarət dövriyyəsinin valyuta tənzimlənməsini və nəzarətini daha səmərəli reallaşdırmaq istiqamətində mövcud qaydaları təkmilləşdirməyin mümkün yollarının elmi cəhətdən əsaslandırılması.

***Açar sözlər: xarici ticarət, liberallaşma, valyuta tənzimlənməsi, ixrac gəlirləri, idxal xərcləri, dönərli valyuta.***

## *Giriş*

Xarici ticarətin liberallaşması ilə valyuta tənzimlənməsi arasında qarşılıqlı əlaqə və asılılıq istər inkişaf etmiş və istərsə də inkişaf etməkdə olan ölkələr üçün çox xarakterik olduğundan hər iki prosesin öyrənilməsi xüsusi diqqət tələb edir. Son vaxtlar Azərbaycan iqtisadçılarının tədqiqatlarında ölkənin xarici ticarətinin liberallaşması səviyyəsinə uyğun milli və sərbəst dönərli xarici valyutalarla hesablaşmalar aparılması və onlardan istifadə edilməsi imkanları xüsusi yer tutur.

Azərbaycanın milli iqtisadiyyatının inkişafı üçün xarici ticarətin əhəmiyyətini əks etdirən ümumiləşmiş göstəricilər çox olsa da, hər halda bunların sırasında idxalın və ixracın dəyəri, ölkənin ümumi daxili məhsulunda (ÜDM) xarici ticarət dövriyyəsinin xüsusi çəkisi, ixrac gəlirlərinin idxal xərclərini ödəmə səviyyəsi və nəhayət, xarici ticarət dövriyyəsinin milli valyuta ilə ödənilməsi imkanı kimi göstəricilər daha düzgün əks etdirə bilir. Sonuncu göstərici tədqiq olunan problemin real vəziyyətinə aid olunan əsas mühakimələrin ölkənin xarici ticarətinin liberallaşdırılması ilə sıx əlaqələndiyindən həmin göstərici xarici ticarətin strukturunun dəyişməsi meylindən əhəmiyyətli dərəcədə asılı olur.

## Xarici ticarət əlaqələrinin liberallaşması və valyuta tənzimlənməsinin zəruriliyi

Azərbaycanın milli iqtisadiyyatının dünya bazarında müəyyən mövqe tutması imkanlarının tədricən artmasının səbəblərini öyrənmək və həmin səbəblərin müntəzəm olaraq müsbət nəticələnməsinə dair iqtisadçı alimlərimiz təqdirəlayiq tədqiqatlar aparmaqdadır [4, s. 75]. Bunlar bizim tədqiqatın qarşısına qoyulan vəzifələrə kifayət qədər uyğun gəlir. Əsas diqqət ölkənin xarici ticarəti-

nin liberallaşdırılması istiqamətində daha səmərəli iqtisadi tənzimlənmə alətlərindən istifadəyə yönəldilir [4, s. 97]. Burada müasir dünya bazarındakı qloballaşma və regionlaşma meyillərinin güclü olması nəzərə alınsa da, bütün hallarda milli iqtisadi tənzimlənmə alətlərindən istifadə diqqət mərkəzində olmalıdır. Yəni regional və qlobal inteqrasiya prosesləri nə qədər güclü olsa da, yenə də milli iqtisadi tənzimləmə sistemi, bu sistemin bütün alətlərində və metodlarında əsaslı keyfiyyət dəyişikliklərinin edilməsi lazım gəlir. Keyfiyyət dəyişikliklərinin edilməsi ilk növbədə ölkənin xarici ticarətinin açıqlıq dərəcəsinin çoxalmasından, idxal-ixrac əməliyyatlarının liberallaşmasında ciddi irəliləyişlərin baş verməsindən asılı olur [7]. Azərbaycanın xarici ticarət dövriyyəsinin liberallaşması səviyyəsi nə qədər yüksəlirsə, həmin prosesin maliyyə tənzimlənməsinin alətləri və metodları sırasından daha səmərəli olanlarının seçilməsi məsələsi daha da mürəkkəbləşir. Belə maliyyə alətləri sırasında valyuta tənzimlənməsi diqqəti daha çox cəlb edir.

Azərbaycanın xarici ticarət əlaqələrinin dairəsi, onun liberallaşması dərəcəsi nə qədər genişlənirsə, həmin proseslərin valyuta tənzimlənməsinə ehtiyac da bir o qədər çoxalır. Sözsüz ki, belə tənzimlənmə sırasında Azərbaycanın milli valyutası da tədricən ölkənin xarici ticarət dövriyyəsinin tənzimlənməsində istifadə olunan valyuta alətlərindən birinə çevriləcəkdir. Milli valyuta tənzimlənməsi bir tərəfdən milli təsərrüfat subyektlərinin xarici ticarət fəaliyyətinin daha önəmli istiqamətlərini stimullaşdırır, digər tərəfdən isə bütün hallarda ölkənin daxili istehlakına xidmət edən sahələrin inkişafına təsir göstərir. Yəni ölkənin daxili ticarətində bazarın ümumi konyunkturası vasitəsilə milli valyuta tənzimlənməsi iqtisadi artımın sürətlənməsinə, dövlət büdcəsinin gəlirləri ilə xərclərin balanslı inkişafına, son nəticədə isə ölkə əhalisinin həyat şəratinin yaxşılaşmasına təminat verir. Belə tənzimlənmə ölkəmizdə valyuta tənzimlənməsi qanununda izah edilən əsas müddəa və prinsiplərə əsaslanır. İlk növbədə nəzərə alınmalıdır ki, həmin qanunda valyuta tənzimlənməsi və valyuta nəzarəti kimi iki istiqamət öz əksini tapmışdır [1, s. 12]. Hər iki istiqamət qarşılıqlı əlaqə və şərtlənmə halında ölkənin Mərkəzi Bankı ilə hökumətin birgə fəaliyyəti ilə həyata keçirilir. Belə şəraitdə xarici ticarət fəaliyyətindən səmərəli istifadə edilməsi, xüsusən xarici ticarətin liberallaşdırılması siyasətindən düzgün istifadə edilməsi əsasında ölkənin xarici ticarət potensialının genişləndirilməsi istiqamətində əlverişli iqtisadi tənzimlənməyə, o cümlədən valyuta tənzimlənməsinə geniş imkanlar yaranır. Qeyri-neft sektorunun üstün inkişaf etdirilməsi yolunu seçmiş Azərbaycan üçün, onun xarici ticarət əlaqələri qarşısına çıxan maliyyə-iqtisadi problemlərin həllində mühüm rol oynaya biləcək valyuta tənzimlənməsinin, xüsusən, milli valyuta ilə tənzimlənmənin potensialından istifadə olunması, bu potensialın səmərəli reallaşdırılması üçün milli iqtisadi inkişaf amillərindən düzgün istifadə olunması Azərbaycanın gələcəkdə beynəlxalq ticarət sferasında xüsusi mövqe tutmasını şərtləndirə bilər.

**Azərbaycanın milli məhsullarının xarici ticarət dövriyyəsinə cəlb olunması imkanları və cari əməliyyatlar balansı**

Azərbaycanda milli iqtisadi inkişaf amillərinin dəstəklənməsi bütünlükdə ölkə iqtisadiyyatı ilə müqayisə edilməlidir. Eyni zamanda xarici ölkələrdə həyata keçirilmiş milli iqtisadi inkişaf amillərinin stimullaşdırma tədbirləri ölkəmiz üçün də az və ya çox dərəcədə məqbul sayıla bilər. Əvvəlki illərin təcrübəsində səmərəli stimullaşdırma tədbirlərinin həyata keçirilməməsi nəticəsində həmin istiqamətdə dəqiq fikir söyləmək imkanı olmamışdır. Hər halda milli iqtisadiyyatın və milli məhsullarımızın xarici ticarət dövriyyəsinə daha çox cəlb edilməsində yeni potensial imkanlar tapılmalıdır.

Real təcrübəyə əsaslanaraq ölkəmizin milli məhsullarının ixrac meyilləri, xüsusən xarici ticarət dövriyyəsində qeyri-neft sektoru məhsullarının ixrac imkanları artır, ölkəmizdən kapital axını ilə ölkəmizə kapital cəlbinin həcmi arasında balanslaşma meyli güclənir. Bunu Azərbaycan Respublikasının tədiyyə balansının göstəricilərindən görmək olar (bax: cədvəl 1.).

Cədvəl 1-dən göründüyü kimi, kapitalın və maliyyənin hərəkəti hesabında yarana bilən kəsir tədricən örtülə bilir. Son illərdə tədiyyə balansında ümumi daxili məhsulun yalnız 25%-i profisit olmuşdur. Belə ki, 2015-2020-ci illərdə Azərbaycanın tədiyyə balansında ümumi dövriyyə sürətlə artdığından nəticədə həmin dövriyyə ölkənin ümumi daxili məhsulunu 40% ötmüşdür.

*Cədvəl 1.*

***Tədiyyə balansının əsas göstəriciləri (mln. dollarla)***

| | | 2015 | 2020 |
|---|---|---|---|
| I. | Cari əməliyyatlar hesabının saldosu | 17146.1 | 43648,8 |
| | Xarici ticarət balansı | 24328.4 | 85329,4 |
| | Xidmətlər balansı | -2995.8 | 26156,6 |
| | Gəlirlər balansı | -4859.8 | -2,459565 |
| | – İnvestisiya gəlirlərinin repatriasiyası | -5148.8 | -18680 |
| | Cari transferlər balansı | 673.3 | 1.125,7 |
| II. | Kapitalın və maliyyənin hərəkəti hesabının saldosu | -4789.9 | -153470,5 |
| | Birbaşa investisiyalar | 912.6 | 6.706965 |
| | – Azərbaycana cəlb olunmuş | 4443.9 | 4.275245 |
| | – Xaricə yönəldilmiş | -554.0 | 2.431780 |
| | – İnvestisiyaların repatriasiyası | -2977.3 | 661810 |
| | Kreditlər və digər investisiyalar | -5722.5 | -113390 |
| | Neft bonusu | 20.0 | 450800 |
| III. | Tədiyyə balansının ümumi saldosu (Ölkənin ehtiyat aktivlərinin dəyişməsi) | 12356.2 | 5.142930 |

*Mənbə: [3, s. 403-404].*

2020-ci ildə cari əməliyyatlar hesabında 43.6 mln dollar profisit yaranmış, o cümlədən neft-qaz sektoru üzrə cari hesabın profisiti 23.4 mln dollardır. Neft-qaz sektorunun profisiti qeyri-neft sektoru üzrə cari hesabın 18,5 mln dollar kəsirinin yerini doldurmuşdur.




**Qrafik 1. Tədiyyə balansının əsas komponentləri, %-lə.**

Xarici ticarət dövriyyəsi 43.7 mlrd. dollar olmuş və xarici ticarət balansı 85.4 mlrd. dollardan ibarət müsbət saldodur.

Azərbaycan son illərdən başlayaraq xarici ticarət sahəsində liberallaşma siyasətini reallaşdırmaqda kifayət qədər sərbəst addımlar atır. Bu addımlar bir-birilə qarşılıqlı əlaqələnən prosesləri özündə birləşdirməklə ümumi bir istiqamətə yönəlmişdir. Bunlar Azərbaycanın xarici ticarət dövriyyəsini ölkənin maliyyə sabitliyinin əsas təminatçıları kimi formalaşırlar. Xarici ticarətin liberallaşması ilə əlaqədar idxal-ixrac əməliyyatlarından daxilolmaların müsbət nəticə verməsi (gömrük rüsumları və yığımları, təkrar ixrac və təkrar idxal gəlirləri, bonuslar və s.) ölkənin dövlət büdcəsinin müsbət saldosu üçün xüsusi əhəmiyyət daşıyır. Hazırda Azərbaycanın xarici ticarət dövriy-

yəsində ixrac potensialının gücləndirilməsi ölkədə mövcud olan valyuta ehtiyatlarından, fəal tənzimlənmə vasitələri kimi onlardan düzgün istifadə edilməsindən çox asılı olur. Bu asılılıq birtərəfli deyil, qarşılıqlıdır, yəni valyutalarla tənzimlənmənin özü ölkənin xarici ticarət dövriyyəsinin artımından, xüsusən onun ixrac imkanlarının güclənməsindən də asılı olur. Bu mənada Azərbaycanın ixrac potensialının gücləndirilməsi ölkənin səmərəli xarici ticarət fəaliyyəti üçün çox güclü mənbə hesab edilə bilər. Yüksək rəqabətqabiliyyətli və müasir dünya bazarının tələblərinə cavab verən mallar istehsalını və xidmətlər göstərilməsini təmin edən sahələrin üstün sürətlə inkişafı Azərbaycanın xarici ticarət fəaliyyətinin mərkəzi problemi hesab edilir.

**Azərbaycanın xarici ticarətinin liberallaşmasının güclənməsi və milli valyuta ilə tənzimlənmənin başlıca istiqamətləri**

Nəzərdə tutulur ki, real sektorun istehsal təyinatlı sahələrinin ixrac yönümü gücləndikcə və bu yönümün nəticələrinin xarici rəqabətə davamlılığı təmin edildikcə azad ticarətin tətbiqinə geniş meydan veriləcəkdir. Bu istiqamətdə konkret fikirlər söyləyən iqtisadçıların apardığı araşdırmalar diqqəti cəlb edir [5, s. 129]. Tam əminliklə demək olar ki, son 20 il ərzində xarici ticarət əlaqələrinin, o cümlədən də idxal-ixrac əməliyyatlarının liberallaşdırılması istiqamətində ciddi irəliləyişlərə nail olunmuşdur. Hər halda xarici ticarət əlaqələrinə girmək istiqaməti tutan, Azərbaycan mallarını dünya bazarına çıxarmaq imkanları olan istehsalçıların valyuta hesablaşmaları sahəsində dövlət köməyinin göstərilməsi olduqca diqqətəlayiqdir. Bütünlükdə dünya ölkələrində olduğu kimi Azərbaycanda da xarici ticarət əməliyyatlarının valyutalarla, o cümlədən milli valyutalarla tənzimlənməsinin rolunu və təsirini artırmaq üçün ölkənin xarici ticarət əlaqələrinin liberallaşdırılmasının xüsusi əhəmiyyəti vardır. Nəzərə alınmalıdır ki, hazırda Azərbaycanın xarici ticarətinin liberallaşdırılmasının gücləndirilməsi istiqamətində milli valyuta ilə tənzimlənmənin artırılması üçün aşağıdakı tədbirlərin həyata keçirilməsinə cəhd göstərilir:

- Vergi və gömrük güzəştləri tədricən tətbiq edilir, Azərbaycanın milli mallarının ixracında stimullaşdırıcı tədbirlər həyata keçirilir. Belə ki, son illərdə ixracdan daha çox səmərə əldə etmək istiqamətində vergi güzəştlərinin həm mənfəətdən vergiyə, həm də əlavə dəyər vergisi və aksizlərə tətbiq etməyə cəhd göstərilir. Azərbaycanın milli mallarının ixracında üstünlük təşkil edən istehsal və xidmətlər sahələrində mənfəətdən vergiyə güzəştlərin tətbiqi diqqəti cəlb edir. Belə güzəştlər ixrac yönümlü mallar və xidmətlər istehsal edən sahələrin inkişafına prioritetlik verən və bununla da milli valyuta ilə xarici ticarət əlaqələrini tənzimləməyə çalışan Azərbaycan iqtisadiyyatı üçün çox vacibdir;
- Hazırda Azərbaycanın xarici ticarət dövriyyəsinin daha sürətlə artırılması ilə əlaqədar olan istehsal sahələrində məqsədyönlü investisiya proqramları hazırlanır və həyata keçirilir. Bu proqramlar ölkədə milli sənayeləşdirmənin gücləndirilməsi istiqamətini tutmaqla yanaşı milli məhsulların ixracına və beləliklə, xarici ticarətin daha da sərbəstləşməsinə kömək etməkdədir;
- Beynəlxalq bazarlara çıxmaq və həmin bazarı öyrənmək üçün milli müəssisələrə həm təşkilati və həm də texniki-iqtisadi cəhətdən kömək göstərilir. İlk növbədə, ixrac yönümlü mallar istehsal edən və xidmətlər göstərən milli müəssisələrə xarici ölkələrdən sifarişlərin verilməsinə dəstək göstərilir. Yüksək keyfiyyətli sənaye avadanlıqlarının, maşın və qurğuların alınmasına şərait yaradılır. Ən vacibi isə ixracatçı milli müəssisələrin iqtisadi maraqlarının xarici ölkələrin hökumət strukturlarında Azərbaycan dövlətini təmsil etməsidir;
- Azərbaycanın xarici ticarət dövriyyəsinin, xüsusən ixrac-idxal əməliyyatlarının milli valyuta ilə tənzimlənməsi və kreditləşmənin həyata keçirilməsi üçün güclü və səmərəli valyuta-kredit təşkilatının yaradılmasına səylər artırılır. Eyni zamanda milli valyutalarla hesablaşmaların və ixrac kreditlərinin sığortalanmasına diqqət artırılır. Bu zaman Azərbaycanın milli məhsullarını alan xarici ölkə istehlakçılarına Azərbaycan dövləti tərəfindən kreditlərin verilməsinə üstünlük verilir, həmçinin ixrac yönümlü məhsullar istehsal edən milli istehsalçılara xidmət göstərən səmərəli bank strukturları yaradılır. Bu tədbirin həyata keçirilməsi Azərbaycanın milli valyutasının xarici ticarətdə mövqeyini tədricən möhkəmləndirməklə onun xarici dönərliliyini artırır. Bu isə öz növbəsində Azərbaycanın xarici ticarətinin sərbəstləşməsində, xüsusən, xarici ticarətin liberallaşması

siyasəti ilə valyuta siyasətinin uyğunlaşdırılmasında irəliləyiş əldə etməkdir.

Son illərdə Azərbaycanın sənaye şəhərlərində, xüsusən də, Sumqayıtda xüsusi ixrac yönümlü texnoparkların və elmi-texniki zonaların yaradılması istiqamətində görülən işlərə diqqət artırılır. Məqsəd xarici və daxili investorların gələcəkdə xarici bazarlarda rəqabət apara biləcək məhsulları hasil etmək və onların daha çox miqdarını xaricə göndərmək məqsədi ilə onlara lazım olan komplektləşdirici məmulatların, maşın və dəzgahların Azərbaycana gömrüksüz daxil olması üçün ayrıca hüquqi şərtlərə nail olmağa şərait yaratmaqdır. Daha vacibi Azərbaycanda istehsal olunan ixrac yönümlü malların və xidmətlərin xaricə ixracında səmərəli valyuta hesablaşmalarının, daha çox isə milli valyuta ilə hesablaşma sisteminin formalaşdırılması və inkişafıdır.

Yuxarıda qeyd edilən və Azərbaycanın milli iqtisadiyyatının nəticələrinin xarici ticarətdə rəqabətqabiliyyətli olması, bununla da ölkənin xarici ticarət əlaqələrinin möhkəmləndirilməsi onun milli valyutasının tədricən xarici dönərliliyini artırır, Azərbaycan manatı ilə hesablaşmalar aparmağa doğru meyli gücləndirir. Bunlar öz növbəsində Azərbaycan mənşəli malların və xidmətlərin beynəlxalq bazarlara maneəsiz çıxarılmasını təmin edə bilir. Azərbaycanın milli valyutasının xarici dönərliliyi tədricən artdıqca ölkənin ixrac potensialı da artır, ixracın strukturu yaxşılaşır, xarici tərəf-müqabilləri ilə eyni şərtlər və hüquq normaları ilə ticarət əlaqələri qurulur, milli istehsalın inkişafı üçün əlavə stimullar yaranır. Bütün bunlar sağlam daxili və xarici rəqabət şəraitində milli məhsulların beynəlxalq standartlara cavab verən texniki və iqtisadi parametrlərinin artırılması baxımından Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına (ÜTT) qəbul olunması reallığını həqiqətə çevirəcəkdir. Hazırda həmin nüfuzlu beynəlxalq təşkilata Azərbaycanın qəbulu məsələsində öz həllini gözləyən şərtlər çoxdur. Bunların sırasında daha vacibi, eyni zamanda daha həlledicisi xarici ticarət azadlığının beynəlxalq miqyasda liberallaşması şərtlərinə uyğunlaşmaqdır. Azərbaycanın ÜTT-yə daxil olması iqtisadi sərhədlərin daha geniş açılması və bu istiqamətdə liberal xarici ticarət siyasətinin aparılması imkanlarını daha da genişləndirəcəkdir.

**Xarici ticarətin liberallaşma səviyyəsi və xarici bazarlara çıxmaq imkanlarının artması**

Bunlarla yanaşı xarici ticarətin liberallaşması səviyyəsi yüksəldikcə daxili və xarici bazara yönəlmiş milli istehsal sahibkarlığının inkişafı sürətlənir. Hazırda Azərbaycanda yeni milli istehsal sahələrinin yaradılması sürətlənir, ixracata istiqamətlənmiş milli istehsal sahələri artır. Xarici ticarətin liberallaşdırılması siyasətinə uyğun istehsal yönümlü sahibkarlığın tədricən artması öz növbəsində ölkənin milli valyutasının nəinki daxili və daha çox onun xarici dönərliliyini də artırır. Azərbaycana idxal olunan mallar və xidmətlərlə rəqabət aparmaq qabiliyyətinə tədricən malik olan milli istehsalçılar idxalın azalmasına təsir edən gömrük tariflərinin səmərəli tətbiqindən həm daha çox iqtisadi cəhətdən canlana bilirlər və həm də xarici valyutalarla tənzimlənmə prosesində (hesablaşmalarda) milli valyutanın da (manatın) tədricən mövqe tutmasına şərait yarana bilir. Lakin nəzərə almaq lazımdır ki, xarici ticarətin liberallaşdırılması ilə idxala gömrük tariflərinin tətbiqinin uyğunlaşması bir araya sığa bilmir. Hər iki proses biri digərini dəf edir. Elə etmək lazımdır ki, milli istehsalçılar daxili və xarici bazara çıxardığı malların və xidmətlərin çeşid müxtəlifliyini və keyfiyyət parametrlərini müntəzəm artırmaq qayğısına qalsınlar, onların yeni və ən müasir texnologiyaların tətbiqinə maraqları olsun. Hazırda mürəkkəbləşən və ziddiyyətli xarakter alan qlobal iqtisadi problemlər dünyanın çoxsaylı ölkələri kimi bizim ölkəmiz üçün də öz həllini gözləyən tədbirlərin həyata keçirilməsini tələb edir. 2010-2020-ci illər arasında dünyada iqtisadi sektorların biri-biri ilə daha üzvi uzlaşması istiqamətində daha yeni və təkmil nizamlanma qaydalarının tətbiqinə önəm verilmişdir. İnnovativ texnologiyaların yaradılmasına və tətbiqinə malik olan ölkələrin xarici ticarət balansında aktiv saldoya doğru meyil yaranmış, real olaraq ümumi daxili məhsul 2,5% olsa da bu rəqəm 2015-ci ildə 1,7% olmuşdur. Mərkəzi və Cənub-Şərq ölkələrində həmin istiqamət daha əlamətdar olmuş, eyni zamanda həmin region ölkələrində transformasiya proseslərinə diqqət artırılmışdır. Yalnız 2015-2020-ci illərdə Çin və Yaponiyada tədiyyə balansının aktiv saldosu, ümumi daxili məhsulun 10,0%-dən 3,7%- düşməsi ilk baxışdan qəribə görünür. Çünki, təcrübə göstərir ki, büdcə artıqlığı adətən xammal idxal edən ölkələrdə rast gəlinir [4, s. 107-111].

Son illərdə ölkəmizin iqtisadiyyatında aparılan məqsədyönlü islahatlar, onların nəticələri digər

sektorlarda olduğu kimi maliyyə sektorunda da, o cümlədən valyuta-kredit hesablaşmalarında da uğurlu olmuş, ölkəyə valyuta axınına sürət vermişdir. Bu hal ölkənin həm dövlət valyuta ehtiyatlarının və həm də Mərkəzi Bankın valyuta ehtiyatlarının artmasına səbəb olmuşdur. Həm milli məhsulların və həm də ölkəmizdə buraxılan lisenziyalı məhsulların ixrac yönümünün artması və həm də idxal olunan məhsulların yerli məhsullarla əvəz olunması bir tərəfdən ölkəmizə valyuta daxil olmalarını artırmış və həm də idxalın əvəz olunması ölkədən valyuta getməsinin qarşısını almaqdadır. Hər iki hal bütünlükdə ölkəmizin valyuta ehtiyatlarını artırmışdır. 2023-cü ilin əvvəlinə 58,1 mlrd. $, 2015-ci ilin əvvəlinə isə 35,6 mlrd. $ olmuşdur Son bir ildə Azərbaycanın valyuta ehtiyatı 11% artıb [8]. Bu işdə neft gəlirlərinin formalaşdığı ARDNF-nin xüsusi yeri və rolu olduğu danılmazdır, onun valyuta vəsaitləri həlledici mövqedədir Bu vasaitlər dövlətin nəinki xarici dövlət borclanmasının qarşısının alınması, daha çox isə ölkənin davamlı və dayanıqlı inkişafının təminatçısı olmuş olur. Hesablamalar göstərir ki, fondun mövcud olduğu vaxtdan 2023-cü ilin əvvəlinə valyuta ehtiyatlarına 3647,2 milyon dollar daxil olub, bu da 8% artım deməkdir.

Azərbaycanın xarici ticarət əlaqələrinin liberallaşması istiqamətində ölkənin strateji valyuta ehtiyatlarının mövcud həcminin artmasında və bu valyutalarla daxili və xarici ticarətin tənzimlənməsində istifadə olunması işində ölkənin Mərkəzi Bankının rolu çox böyükdür. Təsadüfi deyil ki, Mərkəzi Bankın sərəncamında olan valyuta ehtiyatlarının müntəzəm artması olduqca önəmli rol oynayır. Məsələn, 2005-ci illə müqayisədə 2023-cü ilin əvvəlinə Mərkəzi Bankın sərəncamında olan strateji valyuta ehtiyatı 10 dəfədən çox artaraq 9,0 mlrd. dollara çatmışdır. 2022-ci ilin 1 yanvar tarixinə Mərkəzi Bankın valyuta ehtiyatının həcmi 7,1 mlrd. dollar səviyyəsində olmuşdur [99]. Xüsusilə maliyyə-kredit və valyuta əməliyyatlarının tənzimlənməsinə yönəldilmiş geniş miqyaslı tədbirlər həyata keçirilir. Azərbaycan Mərkəzi Bankı milli iqtisadiyyatı və onun pul-kredit sisteminin sabitliyini qorumaq üçün təkrar maliyyələşdirmə dərəcəsini və həm valyuta bazarında və həm də açıq bazarda əməliyyatlar üzrə aşağı salınma istiqamətində faiz dəhlizinin sərhədlərini bir neçə dəfə dəyişmişdir.

Yuxarıda qeyd edilənlər ölkənin xarici ticarət dövriyyəsinin liberallaşmasını, ölkənin beynəlxalq biznes mühitinə qovuşmasını ön sıraya çıxarmaqla nəinki ənənəvi bazarlara, daha çox isə yeni bazarlara çıxışına geniş meydan açır. Xarici ticarət əlaqələrinin ölkələrarası ikitərəfli və çoxtərəfli alqı-satqı əlaqələrindən formalaşan Beynəlxalq ticarət sferası hazırda bir çox problemlərlə qarşılaşır, hər halda beynəlxalq ticarətin liberallaşması ilə tədricən öz həllini tapmaqdadır. Demək olar ki, liberallaşmanın iqtisadi səmərəliliyi də bundadır. Bu istiqamətdə formalaşan beynəlxalq ticarət ümumdünya mənafeyini qorusa da hər halda beynəlxalq ticarətə qovuşan hər bir ölkənin milli mənafeləri də nəzərə alınır və qorunur. Azərbaycan da belədir, onun milli iqtisadi mənafeləri də beynəlxalq alqı-satqı prosesində düzgün və səmərəli realizə olunması diqqətdə saxlanılır. Bu işdə Azərbaycan iqtisadiyyatının, onun maliyyə sektorunun, xüsusən də valyuta hesablaşmalarının, o cümlədən də sərbəst dönərli valyutalarla bərabər Azərbaycan manatının mövqeyi və məsuliyyəti daha önəmli olur. Uyğunsuz və ziddiyyətli məqamlardan qaçmaq, beynəlxalq maliyyə sisteminin pul tədavülü ilə bağlı elmi və praktiki təlimatlarına uyğunlaşmaq lazımdır. Qabaqcıl, eyni zamanda sərbəst dönərli milli valyutalara malik olan ölkələrin təcrübələrindən istifadəyə diqqət verilməlidir.

Manatın ilk növbədə daxili dönərliliyini tam və hərtərəfli təmin etsək, onun dövriyyə sürətini artırmaq, bütün bunlar üçün isə alıcılıq qabiliyyətini gücləndirmək iqtisadi zərurət olaraq qarşıya çıxmışdır. Milli valyutamızın möhkəmlənməsi üçün vacib olan hər üç komponent qarşılıqlı əlaqələnmə və şərtlənmə halında bir məqsədə xidmət etməlidir ki, bu da manatın sərbəst dönərli xarici valyutaların dəyərində ifadə olunan qiymətinin artmasıdır. Reallıq göstərir ki, manatın arxasında dayanan iqtisadiyyatımız, onun qeyri-neft sektoru, xüsusən emal sənayesi, o cümlədən maşın və avadanlıq, qida və yüngül sənayesi tədricən genişlənir, şaxələnir, sonuncuların ixracat yönümü artır. Nəinki təbii potensial hesabına, daha çox isə iqtisadi, xüsusən maliyyə-iqtisadi potensial hesabına valyuta gəlirləri, onun ehtiyatlarının artması hesabına dayanmalıdır.

Milli valyutanın möhkəmliyi ölkənin nəinki daxili və eyni zamanda xarici ticarətdə alqı-satqı, idxal-ixrac əməliyyatlarında aparılan hesablaşmalarda həm bütünlükdə dövlətin və həm də ayrı-

lıqda bazar subyektlərinin gəlir və xərclərinin sabitliyinə təminat verə bilir. Sərbəst xarici dönərli valyutaların dəyərində ifadə olunan milli valyutamızın qiyməti hələ ki, sabit olaraq qalsa da hər halda bununla kifayətlənmək olmaz. Ölkəmiz özünün milli valyutası ilə idxal – ixrac əməliyyatlarının aparılmasına tədricən cəhd göstərilməli, bu sahədə bir sıra maneələr və uyğunsuzluqlar çox olsa da hər halda cəhdlər göstərmək, nəticəyə doğru irəliləmək lazımdır. Belə irəliləyiş həm milli iqtisadi inkişafı sürətləndirmək və hən də regional iqtisadi inteqrasiya proseslərinə qoşulmaq baxımından çox vacibdir. Liberallaşma və valyuta tənzimi biri-biri ilə qarşılıqlı əlaqələnir. Lakin birinci hal nə qədər genişlənib əhatə dairəsi artarsa ikinci hal da öz növbəsində daha çox məsuliyyət və nəzarət tələb edir. Bu istiqamətdə ciddi nəzəri ümumiləşməyə və təcrübi nəticə çıxarmağa çox ehtiyac vardır. İlk növbədə cari və perspektiv dövrlər üçün milli valyutamızın möhkəmlənməsinin əsasında dayanan ilkin şərtlərin, obyektiv faktorların təhlilini aparıb, həlledici olanları ön sıraya çıxarıb eksperiment yolu ilə iqtisadi dövriyyəyə buraxmaq və bununla səmərəli işlək model hazırlayıb real fəaliyyətə keçilməlidir.

Hazırda ölkəmizin iqtisadi inkişaf potensialı və onun resursları milli valyutamızın möhkəmlənməsinə az və ya çox dərəcədə təminat verir, ondan ölkənin idxal-ixrac əməliyyatlarında tədricən istifadə etmək inkanı yaradır. İmkanlar var. Bu imkanların reallaşması üçün tədrici islahatlar ilə yeniləşmə və təkmilləşmə istiqamətində, daha çox isə xarici ticarət əlaqələri sahəsində aparılan islahatların strateji xətti xarici ticarət dövriyyəsinin strukturca yaxşılaşdırılmasına təsir edən səmərəli şəraitin yaradılmasından, idxalla ixracı tənzimləmək qaydalarının təkmilləşdirilməsindən, ən ümumi halda isə xarici ticarəti liberallaşdırmağa daha çox cəhd göstərməkdir. İlk növbədə, Azərbaycanın ixrac potensialının genişləndirilməsi, ixracın şaxələndirilməsi, onun milli valyuta ilə tənzimlənməsi üçün ilkin baza şərtlərini hazırlamaqdır [6]. Bu, son nəticədə Azərbaycanın milli valyutasının nəinki daxili, daha çox isə xarici dönərliliyinə şərait yaradacaqdır.

**Valyuta tənzimlənməsinin başlıca üsullarından və metodlarından səmərəli istifadə**

Bunun üçün xarici ticarət dövriyyəsinin valyuta tənzimlənməsi sisteminin gücləndirilməsi və inkişaf etdirilməsi çox vacib hesab oluna bilər. Daha vacibi isə tənzimlənmə mexanizminin alətlərindən, üsullarından, metodlarından düzgün və səmərəli istifadəni, xüsusən həmin mexanizmlə, onun səmərəli işləməsi ilə bağlı real maliyyə iqtisadi mühütin yaradılması, mövcud boşluqların doldurulmasıdır. İstər daxili və istərsə də xarici ticarətin valyuta tənzimlənməsi üçün qüvvədə olan hüquqi-iqtisadi sənəd Azərbaycan Respublikasının “Valyuta tənzimi haqqında” Qanunu hesab olunur [1]. Qanunun işləməsi və onun təsir imkanları nəticəsində Azərbaycanın milli iqtisadiyyatında, onun daxili və xarici ticarətində əhəmiyyət kəsb edən dəyişikliklər baş vermişdir. Lakin ölkənin idxal və ixrac əməliyyatlarında diqqətəlayiq şaxələnmələrin baş verməsi, idxalın əvəz olunması siyasətinin reallığa tədricən çevrilməsi, ixrac yönümünün artması adı çəkilən qanunun ayrı-ayrı maddələrinin təkmilləşdirilməsi və dəqiqləşdirilməsini tələb edir. Biz iqtisadçı alimlərin belə bir fikirləri ilə razılaşırıq ki, qloballaşma mərhələsində beynəlxalq əmək bölgüsünün dərinləşməsi bütünlükdə beynəlxalq ticarətlə yanaşı ölkələrarası iki və çoxtərəfli mal mübadiləsini intensivləşdirir, istehsal və elmi-texniki kooperasiya, eləcə də valyuta sferasında olan dəyişikliklərə ciddi təsir göstərir [7].

Xarici ticarətin ayrı-ayrı sahələrində baş verən əhəmiyyətli dəyişikliklər öz növbəsində ölkənin xarici ticarət əlaqələrinin valyuta tənzimlənməsi sferasında da uyğun dəyişikliklərin edilməsi ilə səciyyələnə bilər. Azərbaycanın ixrac potensialından istifadənin səmərəliliyinin yüksəldilməsində valyuta tənzimlənməsi mexanizminin təsirinin gücləndirilməsi üçün ixracatçı Azərbaycan müəssisələrinin sayını, tərkibini və digər uçot əməliyyatlarını dəqiqləşdirmək lazımdır. Bu, hər şeydən əvvəl ölkənin milli iqtisadi mənafeyi baxımından əhəmiyyətli və miqyaslı olsa da, hər halda onu qiymətləndirmək üçün ilkin addım kimi ixracatçı milli müəssisələrin miqdarı dəqiqləşdirilməlidir. Ona görə ki, həmin müəssisələrin beynəlxalq bazarlara çıxmaq, ixracat malları buraxmaq üçün beynəlxalq standartlara cavab vermək imkanlarını müəyyənləşdirmək çox vacibdir. Bunun üçün ixracatçı müəssisənin son bir il ərzində beynəlxalq bazarlarda satdığı malların və xidmətlərin onun ümumi mal dövriyyəsindəki hissəsini nəzərə almaq lazımdır [4].

Azərbaycanın ixrac-idxalı ilə bilavasitə əlaqələnən valyuta tənzimlənməsi həm mallar və xidmətlər üzrə və həm də kapitalların hərəkəti üzrə özünün təsir imkanını saxlayır. Hər iki fəaliyyətlə bağlı həyata keçirilən valyuta tənzimlənməsi aparılan ticarət əməliyyatlarının bütün sahələrini əhatə edir. Lakin real təcrübədə Azərbaycana gələn və gedən kapitalların hərəkətini tənzimləyən valyuta əməliyyatlarının siyahısı öz ifadəsini dəqiq tapa bilmir. "Valyuta tənzimi haqqında" Qanuna və qüvvədə olan digər qanunvericiliyə görə kapitalların hərəkətinə aid olan valyuta əməliyyatlarının aparılması üçün Mərkəzi Bankın xüsusi icazəsini (lisenziyasını) almaq lazım gəlir. Mövcud təcrübə göstərir ki, belə icazəni almaq üçün həddindən çox vaxt tələb olunur və bir sıra mürəkkəb mərhələlərdən keçmək lazım gəlir. Bu isə valyuta tənzimlənməsi prosesini həyata keçirən strukturların işini çətinləşdirir. Çətinliyin aradan qaldırılması yollarını həm dünya ölkələrinin təcrübəsindən və həm də Azərbaycanın xarici ticarətinin mövcud vəziyyətindən tapmaq olar. Dünya ölkələrinin təcrübəsində xarici ticarətin valyuta tənzimlənməsinin dəqiq təsnifatı verilir, xarici ticarətin hər bir sahəsi üzrə aparılan əməliyyatların tənzimlənməsi ciddi şəkildə müəyyən edilir. Azərbaycanın mövcud vəziyyətində isə valyuta tənzimlənməsinin sabitliyi məsələsi öz həllini tapa bilmir. Əsas məsələ odur ki, xarici ticarətin valyuta tənzimlənməsi üzrə hüquqi normalarda və normativ aktlarda dəyişikliklərin edilmə müddəti uzadılsın. Yəni həmin müddət heç olmasa 2-3 ildən tez olmasın. Bu hal Azərbaycanla xarici ticarət əlaqələrinə girən bütün iştirakçıların, valyuta tənzimlənməsi ilə məşğul olan bütün strukturların işini asanlaşdırır. Lakin bəzi hallarda qanunvericiliklə valyuta tənzimlənməsi sahəsində mövcud normativ aktların tez-tez dəyişdirilməsi, xarici iqtisadi fəaliyyətin tənzimlənməsi üzrə valyuta əməliyyatlarının həyata keçirilməsi qaydalarının subyektiv şərtlərlə dəyişdirilməsi bir sıra neqativ nəticələrə gətirib çıxarır [6]. Hətta xarici iqtisadi fəaliyyətin iştirakçılarını qeyri-ədalətli manevrlər etməyə məcbur edir.

### *Nəticə*

Ölkəmizin milli valyutası olan manatın alıcılıq qabiliyyətini möhkəmləndirmək, istər daxili və istərsə də xarici dönərliliyini təmin etmək üçün milli iqtisadiyyatın əsasları möhkəmləndirilməlidir. İlk növbədə qeyri-neft sektorunun, xüsusən emal sənayesinin maşın-avadanlıq, kənd təsərrüfatının əkinçilik – heyvandarlıq yarımsahələrinin prioritet sayılan rəqabət qabiliyyətli milli məhsullarının ixrac yönümü artırılmalıdır. Milli valyutamızın arxasında milli məhsullarımız, xüsusən ixrac yönümlü, xarici bazarlarda rəqabət apara bilən məhsullarımız dayanmalıdır. Ölkəmizin apardığı idxal-ixrac əməliyyatının valyuta hesablaşmaları əsasən sərbəst dönərli xarici valyutalar olduğundan, həmin valyutaların dəyərində ifadə olunan manatımızın qiyməti də nəzərə alınır və bəzən çoxsaylı çətinliklər yaradır. Manatın xarici dönərliliyinin təmin olunması, ixrac olunan milli mallara və xidmətlərə görə hesablaşmalar zamanı manatdan istifadə az və ya çox dərəcədə ölkəmizin ticarət balansının tarazlığının saxlanılmasına təsir edə bilər.

### ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının "Valyuta tənzimi haqqında" Qanunu.
2. Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. AR Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı. Bakı, 2021-ci il.
3. Beynəlxalq Valyuta Fondunun Azərbaycan üzrə proqnozları. Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. Bakı, 2020-ci il, s.40.
4. Bayramov Vüqar. Azərbaycanda iqtisadiyyatın diversifikasiyasının maliyyə təminatının gücləndirilməsi məsələləri. Bakı, 2018.
5. Həsənov R.T. İqtisadi siyasət: metodologiya və praktika. Dərs vəsaiti. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2010, 282 s.
6. Kərimli İ.A. Beynəlxalq iqtisadi münasibətlərin müasir problemləri. Bakı: Çaşıoğlu, 2006, 301 s.
7. Mirkişili T.F. Azərbaycanın xarici ticarət siyasəti: Reallıqlar və perspektivlər. Bakı: "İqtisad Universiteti" nəşriyyatı, 2004, 89 s.
8. www.imf.org

***Илкин Рамиз оглы Байрамов***
***докторант Института Экономики***
***Министерства Науки и Образования***

**Увеличение возможностей использования либерализации и валютного регулирования во внешней торговле Азербайджана**

***Резюме***

**Цель исследования** - раскрыть возможности использования национальной валюты страны в связи с проведением структурных изменений во внешней торговле и определением уровня либерализации внешней торговли заключается в исследовании международной конкурентоспособности конечных результатов национальной экономики.

**Методология исследования** – сравнительный анализ и обобщение, системный подход, научная абстракция, единство логики с историей.

**Ограничения исследования -** возможности научно и экспериментально изучить современный опыт Азербайджана в области валютного регулирования внешней торговли, обосновать принципы притока валюты из внешнеторгового обращения и вывода валюты из страны.

**Результаты исследования**. Выявить проблемы, возникающие в связи с валютным регулированием и контролем внешнеторгового обращения Азербайджана, и дать аргументированные предложения в направлении устранения несоответствий, образовавшихся в импортно-экспортных операциях.

**Практическая значимость исследования.** Выявить возможность сопоставить объем работ, подлежащих выполнению в связи с валютным контролем импортно-экспортных операций Азербайджана, с имеющимися возможностями, раскрыть реальную и правовую основу субъектов внешней торговли, ввозящих валюту в страну.

**Оригинальность исследования.** Научное обоснование возможных путей совершенствования существующих правил в целях более эффективной реализации валютного регулирования и контроля внешнеторгового оборота.

***Ключевые слова: внешняя торговля, либерализация, валютное регулирование, экспортные доходы, затраты на импорт. конвертируемая валюта***

***Ilkin Ramiz Bayramov***
***doctoral student at the Institute of Economics***
***of the Ministry of Science and Education***

**Increase in opportunities to use liberalization and currency regulation in Azerbaijan's foreign trade**

***Summary***

**The purpose of the research** – to reveal the possibilities of using the country's national currency in connection with making structural changes in the foreign trade and determining the level of liberalization of foreign trade is to study the international competitiveness of the final results of the national economy.

**Research methodology** – comparative analysis and generalization, systematic approach, scientific abstraction, unity of logic with history.

**Limitations of the research -** opportunities to scientifically and experimentally study the current experience of Azerbaijan in the field of currency regulation of foreign trade, justify the principles of currency inflows from foreign trade circulation and currency withdrawals from the country.

**Results of the research**. To reveal the problems encountered in connection with the currency regulation and control of Azerbaijan's foreign trade circulation, and to give reasoned proposals in the direction of elimination of inconsistencies formed in import-export operations.

**Practical significance of the research.** To reveal the ability to compare the volume of work to be performed in connection with the currency control of Azerbaijan's import-export operations with the existing opportunities, to reveal the real and legal basis of foreign trade subjects bringing currency into the country.

**Originality of research.** Scientific justification of the possible ways to improve the existing rules in order to more effectively realize the currency regulation and control of foreign trade turnover.

***Key words: foreign trade, liberalization, currency regulation, export revenues, import costs. convertible currency.***